# Şəhidlər ölməz, Vətən bölünməz!

## 20 Yanvar faciəsində şəhid olan üç məktəblinin əziz xatirəsinə







REKVİUM

## ...Araya dava düşdü, Orda üç balam qaldı

...Onlar üç şagird idilər. Hərəsi bir məktəbdə təhsil alırdı. Kimisi gələcəkdə müəllim, kimisi həkim, kimisi isə mühəndis, yaxud başqa bir sahənin mütəxəssisi olmaq arzusu ilə. Kim idi bu yeniyetmələrin müqəddəs arzularını ürəkərində qoyan, onları reallaşmağa qoymayan? Tək onlarınmı arzusu ürəklərində qaldı? Əlbəttə, yox. Onları boya-başa çatdıran, illər boyu nazlarını çəkən, keçirdikləri yuxusuz gecələrin bəhrəsin görmək arzusu ilə ümid dolu sabaha nikbin baxan anaların, əliqabarlı, dağ vüqarlı ataların ümidləri idi puç olan o gecə.

Bu gün 20 Yanvar tarixinin millətimiz üçün ən qanlı səhifəsini vərəqləyərkən o qanlı təqvim günü üç balamızın - Larisa Məmmədovanın, Vera Bessantinanın və İlqar İbrahimovun tarimar olan uşaq dünyalarının dağ boyda yükü altında təngnəfəs olmaya bilmirsən. Unutmaqmı olar həmin gecə baş verən o dəhşətli faciəni?! Biri atası ilə avtobusda evə qayıdarkən yolda qaniçən qəsbkarların gülləbaranına tuş gələrkən, biri öz yastığında nağıl dünyasına qovuşduğu məqamda ürəyindən güllə yarası alarkən, birisi isə öz həyət evlərində Bakının səmasını al qana boyayan, ağzından od püskürən güllələri seyr edərkən əbədiyyətə qovuşdu. Bu, sözün tam mənasında tarixi bir faciə idi.

... Müstəqilliyimiz uğrunda şəhid olan övladlarımızın sırasında-Şəhidlər Xiyabanında bu üç balamızın gül çələngi ilə əhatə olunmuş portretlərini görən hər bir kəs addımını yubadır, insan qanına susayanları lənətləyərək dərin xəyal aləminə qərq olur və haçandan-haçana özünə gələrək sıraya düzülmüş növbəti şəhid qardaşbacılarımızın məzarlarını ziyarət etməyə davam edir.

...Onların hər üçü şagird idi. Onlar hələ müharibənin mahiyyətini, onun olduqca acı olan dadını , ümumiyyətlə, bəşəriyyət üçün faciə olduğunu dərindən dərk etmirdilər. Məktəbə qədəm qoyduğu gündən dilindən və dini mənsubiyyətindən asılı olmayaraq bütün insanlara doğma hisslər aşılamağın vacibliyini özündə əxz etdirən bu yeniyetmələr hansı günah sahibi idilər?! Onlar öz canları bahasına bizim hamımızı müstəqilliyə qovuşdurdular. Biz yenidən doğulduq, inkişaf etdik və torpaqlarımızı erməni faşistlərin işğalından azad etdik. Onlar isə 1990-cı il 20 Yanvar tarixindən etibarən əbədiyaşarlıq statusu qazanaraq Ulu Tanrının günahsız insanlar üçün nəzərdə tutduğu "Ağ Saray"da bərqərar oldular. Bu, onların haqqı idi, hər bir kəsə nəsib olmayan haqqı.

Otuz üç ildir ki, Vətən üç ana ilə, üç ata ilə bərabər həyatın acılı-şirinli dadını dadmağa macal tapmayan bu üç balasına ağı deyir:

*Dağlarda talam qaldı,*
*Biçmədim, lalam qaldı,*
*Araya dava düşdü,*
*Orda üç balam qaldı.*

**Sifai SƏFƏROVA**

## "Şəhidlər"

Qatil gülləsinə qurban gedərkən,
Gözünü sabaha dikdi şəhidlər.
Üçrəngli bayrağı öz qanlarıyla
Vətən torpağına çəkdi şəhidlər.

Zalım öyünməsin zülmləriylə,
Min bir böhtanıyla, min bir şəriylə.
Həqiqət uğrunda ölümləriylə
Ölümü kamına çəkdi şəhidlər.

O şənbə gecəsi, o qətl günü,-
Mümkünə döndərdik çox namümkünü.
Xalqın qəlbindəki qorxu mülkünü,
O gecə dağıdıb sökdü şəhidlər.

Tarixi yaşadıb diləyimizdə,
Bir yumruğa döndük o gecə biz də.
Yıxıb köləliyi ürəyimizdə
Cəsarət mülkünü tikdi şəhidlər.

Onlar susdurulan haqqı dindirər,
Qaraca torpağı qiymətləndirər.
Donan vicdanları qeyrətləndirər,
Axı, el qeyrəti çəkdi şəhidlər.

Bilirik, bu bəla nə ilkdi, nə son,
Ölürkən uğrunda bu ana yurdun.
Quzu cildindəki o qoca qurdun,
Doğru, düz cildini çəkdi şəhidlər.

Dözdü hər zillətə, dözdü hər şeyə,
"Dünyada mənim də haqqım var", - deyə
Kütləni xalq edən müqaviləyə
Qanıyla qolunu çəkdi şəhidlər.

İnsan insan olur öz hünəriylə,
Millət, millət olur xeyri, şəriylə.
Torpağın bağrına cəsədləriylə,
Azadlıq tumunu əkdi şəhidlər.

**Bəxtiyar VAHABZADƏ**
*16.07.2020*





# 20 Yanvara həsr olunmuş xüsusi dərslər

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) müdiri Mehriban Vəliyeva 20 Yanvar-Ümumxalq Hüzn Gününə həsr olunmuş xüsusi dərsləri izləyib.

Xalqımızın azadlıq mübarizəsinin şanlı mərhələsini şagird və müəllimlərlə müzakirə edən BŞTİ müdiri Mehriban Vəliyeva 20 Yanvar hadisələri zamanı xalqımızın qəhrəmanlığından danışıb.

20 Yanvar hadisələrinin tarixindən söz açan idarə müdiri bu proseslərə hüquqi-siyasi qiymətin böyük dövlət xadimi Heydər Əliyev tərəfindən verildiyini diqqətə çatdırıb. Mehriban Vəliyeva Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin şəhidlərin adını daim uca tutmasından, onların ailələrinin sosial müdafiəsinə xüsusi diqqət göstərməsindən bəhs edib.

İdarə müdiri Azərbaycan xalqının apardığı mübarizə tarixinin bizi 20 Yanvar hadisələrindən keçirib müstəqilliyə və zəfərə qovuşdurduğunu diqqətə çatdırıb. M.Vəliyeva 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun qazandığı parlaq qələbədən bəhs edərək Vətəni sevmək, onu qorumaq, baş verən tarixi hadisələri unutmamaq və gələcək nəsillərə ötürmək üçün təhsil sahəsində mühüm işlər görüldüyünü bildirib.

20 Yanvar hadisələrinin xalqımızın zəfər yolunun başlanğıcı kimi mühüm tarixi və rəmzi mənaya malik olduğunu vurğulayan idarə müdiri "Heydər Əliyev İli"ndə şagirdlərin dövlətçilik tariximizə dair biliklərin öyrənilməsinə, xalqımızın şanlı mübarizə yoluna aid əsaslı məlumatlara yiyələnməsinə daha geniş yer verilməsinin əhəmiyyətini nəzərə çatdırıb.

Qeyd edək ki, "20 Yanvar faciəsinin otuz üçüncü ildönümü ilə bağlı Elm və Təhsil Nazirliyinin Tədbirlər Planı"na əsasən I-IV sinif şagirdləri üçün "20 Yanvar şəhidləri", V—IX sinif şagirdləri üçün "20 Yanvar faciəsi: səbəblər, günahkarlar, nəticələr, insan taleləri", X—XI sinif şagirdləri üçün "20 Yanvarın bizə verdiyi vətəndaş dərsi" mövzularında dərslər keçirilib.